

**VÜQAR RƏHİMZADƏ,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏTBUATI

**Bu il müstəqil dövlət kimi 12 yaşını qeyd edəcək Azərbaycan Respublikasının ictimai həyatının bütün sahələrində-iqtisadiyyat, sosial təminat, diplomatiya, elm, təhsil, səhiyyə, mədəniyyət və incəsənət, hərbi quruculuq, söz və mətbuat azadlığı, insan haqlarının qorunması, hüquqi, dünyəvi və demokratik dövlət quruculuğu kimi mühüm əhəmiyyətə malik sferalarda qazandığı bütün uğurlar bilavasitə Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Bütövlükdə isə Azərbaycan tarixinin bir qərinəlik dövrü- son 34 illik mərhələsi bu dahi şəxsiyyətin adı ilə bağlıdır.**

* * *

Heydər Əliyev Azərbaycana 1982-1993-cü illərdəki fasilə nəzərə alınmasa, 1969-cu ildən rəhbərlik edir. Azərbaycan xalqı XX əsrdə üç dəfə respublika qurub. 1918-1920-ci illərdə ilk Müstəqil Demokratik Respublika, daha sonra SSRİ-nin tərkibində fəaliyyət göstərən müttəfiq respublika və son olaraq 1991-ci ildən etibarən qurulan müstəqil Azərbaycan Respublikası. Onların ikisində Heydər Əliyevin silinməz izləri var. Daha doğrusu, Heydər Əliyev həm II, həm də III respublikaların inkişafında xüsusi rola malikdir. İndiki müstəqil Azərbaycan Respublikası elə Prezident Heydər Əliyevin yaratdığı dövlətdir. Burada Prezident Heydər Əliyevin müstəqil dövlət quruculuğunun ən müxtəlif aspektlərindən götürülən xidmətləri barədə geniş danışmaq, bu xidmətlərin bənzərsizliyini göstərən konkret faktları sadalamaq olar. Amma biz burada məsələnin yalnız bir aspektinə- məqalənin başlığında da yer alan mətbuatla bağlı hissəsinə toxunacaq, «Heydər Əliyev və Azərbaycan mətbuatı» mövzusunda bəzi mülahizələrimizi bildirəcəyik.

İlk öncə onu qeyd edək ki, başlanğıcı hələ 1875-ci ilə, Həsən bəy Zərdabinin «Əkinçi» qəzetinə gedib çıxan və bu ilin iyulunda 128 yaşını qeyd edəcəyimiz Azərbaycan mətbuatı həmişə avanqard qüvvə olub, cəmiyyətimizin inkişafını həm şərtləndirib, həm də istiqamətləndirib. Milli mətbuatımız Azərbaycanın ictimai-siyasi və sosial- mədəni həyatının, ölkəmizdə qabaqcıl ideyaların və maarifçiliyin yayılmasının, Azərbaycanda dövlətçilik institutlarının formalaşmasının və inkişafının, demokratik təfəkkür tərzinin ön plana çıxmasının əsas şərtlə-

rindən biri, hətta birincisi olub. Milli mətbuatımız 128 ildə böyük yol keçib, öyrənib, öyrədib, güclənib, inkişaf prosesinə təkan verib, ictimai rəyi formalaşdırıb, bəzən cəmiyyəti istiqamətləndirib.

Mətbuat cəmiyyətdə həmişə öndə gedən və ictimai proseslərə böyük təsiri olan qüvvədir. Onun belə bir mühüm ictimai funksiyaya malik olduğunu, cəmiyyətdə böyük rol oynadığını, bir sözlə, mətbuatın real gücünü Azərbaycanda ilk dəfə məhz Heydər Əliyev düzgün qiymətləndirib. O, hələ 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayandan sonra mətbuatla əlaqələrə xüsusi diqqət yetirməyə, sözün dəyərini uca tutmağa başlayıb. Heydər Əliyev Azərbaycana rəhbərlik edənlər arasında ictimai rəyə xüsusi hörməti və diqqəti olan yeganə dövlət xadimidir. İctimai rəy, yaxud mətbuatın yazdıqları xalqın səsidir. Heydər Əliyev xalqın lideri olduğunu, xalqa bağlı olduğunu, necə deyərlər, xalqla nəfəs aldığını öz əməli fəaliyyəti ilə çoxdan sübut edib. Bu ənənə 34 il sonra da müstəqil Azərbaycan Respublikasında Prezident Heydər Əliyev tərəfindən davam etdirilir.

Sovet dövründə mətbuat anlayışı indiki anlayışla eyni deyildi. O zaman bütün SSRİ-də, o cümlədən, Azərbaycanda indiki anlamda mətbuat yox idi. O vaxt müstəqil qəzetlər, özəl telekanallar hətta qeyri- rəsmi qaydada da söhbət mövzusu ola bilməzdi. Sovet dönəmində mətbuat bütünlüklə ciddi dövlət nəzarətində idi. Həddindən artıq ciddi senzura mövcud idi. Az qala hər söz zərrəbinlə nəzərdən keçirilir, hər fikir dəfələrlə yoxlanılırdı. Sovet dövləti mətbuat üzərində qeyri- adi dərəcədə güclü nəzarət sistemini təsadüfən qurmamışdı. O zamankı idarəçilər də mətbuatın cəmiyyətə təsir gücünün nə qədər böyük olduğunu bilirdilər. Amma bunu Heydər Əliyev qədər yüksək dəyərləndirən ikinci bir sovet lideri olmayıb. Heydər Əliyevin mətbuata münasibətində daha bir qabarıq cəhət budur ki, o, Azərbaycanda yerli mətbuata həmişə həm böyük yaradıcılıq sərbəstliyi və demokratik mühitdə işləmək imkanı verib, həm də onun ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına xüsusi qayğı və diqqət göstərib, bir sözlə, azad sözün qayğısına qalıb. Mətbuatda qaldırılan hər hansı bir problemin Heydər Əliyevin diqqətindən kənarda qalması hətta nəzəri cəhətdən də mümkün deyildi.

Bu gün klassik mənada götürülən söz və mətbuat azadlığından danışırıqsa, nəzərə almalıyıq ki, bunu Azərbaycana Heydər Əliyevin hakimiyyətə qayıdışından keçən son 9 il yarım verib.

Heydər Əliyevin Azərbaycan mətbuatı qarşısındakı ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, bu böyük azərbaycanlı mətbuatımızın həmişə milli ruhlu olmasını, milli ideyanı yaymasını, azərbaycançılığı təbliğ etməsini, mətbuatımızın milli simaya malik olmasını təmin etmək barədə düşünüb, bunu təmin edib, milli ruhlu yazarlarımızı totalitar sovet ideologiya maşınının təzyiqlərindən qoruyub, onlara arxa- dayaq və ən böyük hami olub. Bununla bağlı bir nümunəni xatırlatmaq yerinə düşərdi. Prezident Heydər Əliyev Azərbaycan Yazıçılarının X qurultayındakı (28-30 oktyabr, 1997) nitqində belə deyirdi: «... Məsələn, mən



«Qobustan» jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu «Qobustan» jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də «Qobustan» jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm- «Qobustan» jurnalı o vaxt çox böyük işlər gördü.

Amma təkcə «Qobustan» jurnalı deyildi. «Azərbaycan» jurnalını, «Ulduz» jurnalını götürün. Bunlar dövlət jurnalları idi, amma bu jurnallarda siz nə istəyirdiniz, onu da dərc edirdiniz, heç bir məhdudiyyət yox idi. Kim nə istəyirdi, onu da dərc edirdi. Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən – Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsəri qadağan edilməyibdir, bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır».

Bu, Heydər Əliyevin milli ideyaya- azərbaycançılığa bağlılığını göstərən məqam olmaqla yanaşı, onun həm də milli mətbuata, Azərbaycanın milli-mənəvi dəyərlərini yayan və təbliğ edən kütləvi informasiya vasitələrinə qayğısının bir epizodudur.

Bu məqamda onu da qeyd etmək yerinə düşərdi ki, Prezident Heydər Əliyevin 24 noyabr, 1997-ci il tarixli fərmanı ilə «Azərbaycan», «Qobustan», «Ulduz», «Literaturnı Azerbaycan» jurnallarının və «Ədəbiyyat» qəzetinin nəşri dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməyə başladı. Bu, müstəqil Azərbaycanın tarixində böyük bir ənənənin – azad mətbuata dövlət qayğısı göstərilməsi ənənəsinin əsasını qoyan addım və bütün postkommunist məkanında ilk belə hadisə idi.

Prezident Heydər Əliyevin mətbuata xüsusi münasibti var. Bu münasibət əlbəttə ki, müsbətdir. Azərbaycan Prezidentinin mətbuata xüsusi münasibətinin bütün müsbət çalarları özünü xarici ölkələrin kütləvi informasiya vasitələri rəhbərlərinin 2001-ci ilin iyul ayında Azərbaycana baş tutmuş səfəri zamanı bir daha göstərdi. Prezident Heydər Əliyev xarici kütləvi informasiya vasitələrinin rəhbərlərindən ibarət nümayəndə heyəti ilə ilk görüşündə Azərbaycan rəhbərliyinin azad mətbuata münasibətini ifadə edərkən belə demişdi: «Nə olar, qoy mətbuat dördüncü hakimiyyət olsun. Biz bunu qəbul edirik. Başlıcası odur ki, mətbuat özünün dördüncü hakimiyyət olmaq vəzifəsini bu və ya digər işə bələdliklə yerinə yetirsin. Bundan ötrü ən yaxşı üsul isə jurnalistin özünün vəziyyətlə tanış olması, özünün görməsi, özünün eşitməsidir».

Prezident Heydər Əliyevin bu sözləri onun həm də mətbuat üçün müəyyənləşdirdiyi peşə əxlaqı normaları kimi qəbul oluna bilər.

Qeyd edək ki, Prezident Heydər Əliyev 2001-ci il, iyul ayının 15-də «Zuğulba» dövlət iqamətgahında xarici ölkələrin kütləvi informasiya vasitələrinin Bakıda səfərdə olan rəhbərləri ilə qeyri-rəsmi şəraitdə də görüşmüş, onlarla bir sıra məsələlər, o cümlədən mətbuatla bağlı mövzu ətrafında səmimi və geniş söhbət aparmışdır. Azərbaycan Prezidentinin azad mətbuata münasibətinin mahiy-

yətini onun Rusiyanın «Moskoskiye novosti» qəzetinin baş redaktoru Viktor Loşakın sualına cavabından da aydın şəkildə görmək olar. Prezident Heydər Əliyev ona «Siz kütləvi informasiya vasitələri ilə münasibətlərinizi necə qurursunuz? Siz kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşürsünüzmü?» -deyə müraciət edən V.Loşakın sualına cavabında belə demişdir: «Bilirsinizmi, mən kütləvi informasiya vasitələrinin bütün nümayəndələri və rəhbərləri ilə münasibətlər qurmaq istəyirəm. Amma bu, təkcə məndən asılı deyil, hər iki tərəfdən asılıdır... Özəl televiziya əsasən müxalifət xarakterlidir. Amma mənim onlarla yaxşı münasibətlərim var.

Haraya isə gedirəm, hava limanında mütləq bütün suallara cavab verirəm. Qayıdıram, nə vaxt olursa-olsun, gecə saat bir, iki – jurnalistlər gözləyirlər, bütün suallara cavab verirəm. Başqa şəraitdə də görüşürük. Əlbəttə, içərisində çox bədxahları da var, onlarla əlaqə saxlamaq sadəcə mümkün deyildir. Ümumiyyətlə isə, mənim mətbuata münasibətim həmişə xeyirxah olub və indi də belədir».

Heydər Əliyevin hakimiyyətə qayıdışına qədərki dövrdə Azərbaycanda indi bəzilərinin iddia etdikləri kimi, əsl demokratiya yox, təhrif olunmuş demokratiya təsəvvürləri və anormal demokratiya var idi. Bu təsəvvürlər hakim idi və onlar bütün ictimai-siyasi münasibətlərin xarakterinə təsir edərək, demokratik cəmiyyət yaranmasını ləngidirdi. Deformasiyaya uğradılmış, təhrif olunmuş, bir qədər də səriştəsizliklə və məsuliyyətsizliklə, lazımsız emosionallıqla çuğlaşmış yalançı və yarımçıq demokratiya modeli cəmiyyətə, o cümlədən milli mətbuatımıza o zaman xeyli mənfi təsirlər göstərdi. Bu model söz və mətbuat azadlığını heç bir halda təmin edə bilməzdi. Bu onun imkanı xaricində idi.

Demokratiyanın bərqərar olması üçünsə ilk növbədə ictimai-siyasi sabitlik və iqtisadi azadlıq lazımdır. 1993-cü ildə Heydər Əliyev ölkə rəhbərliyinə qayıdana qədər Azərbaycanda nə sabitlik vardı, nə iqtisadi müstəqillik, nə maddi rifah halı, nə də gələcəyə ümid. Şüurlarda inqilab olmayınca, demokratiya, söz və vicdan azadlığı barədə deyilənlər elə söz olaraq qalacaqdı. Şüurlardakı bu inqilabı məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı şərtləndirdi.

Artıq qeyd etdiyimiz kimi, Prezident Heydər Əliyevin azad mətbuata özəl münasibəti var. Azərbaycanın dövlət başçısı mətbuatın problemləri ilə həmişə maraqlanır, ona qayğı göstərir, həmçinin söz azadlığının təmin edilməsi, jurnalistlərin azadlığının və hüquqlarının qorunması naminə hər şey edir. Prezident Heydər Əliyevin mətbuata xüsusi münasibətini göstərən daha bir vacib amil budur ki, dövlət başçımız mətbuatın rəyini nəzərə alır, mətbuatın qərəzsiz və obyektiv tənqidi mövqeyini həmişə yüksək qiymətləndirir, mətbuatın qaldırdığı problemlərin həllinə çalışır. Bununla bağlı bir məqamı yada salaq.

Prezident Heydər Əliyev 2002-ci il, iyulun 22-də Milli Mətbuat günü münasibətilə Bakı Mətbuat Klubunun təsisçilərini, o cümlədən bir neçə qəzetin baş redaktorlarını və jurnalist təşkilatlarının rəhbərlərini qəbul etmiş və onlara müsahibə vermişdi. Həmin müsahibədə Azərbaycanda müxalifyönlü və müstəqil mətbuatın olmasını demokratiyanın əlaməti və vacib şərtlərindən biri kimi dəyərləndirən Prezident Heydər Əliyev mətbuatı gerçəkdən də müstəqil, lakin eyni zamanda qərəzsiz və obyektiv olmağa çağıraraq belə demişdir: «İstərdim ki, müxalifət mətbuatı tarazlı siyasət aparsın. Yəni tənqid də etsin, tənqidsiz ola bilməz. Səhvlərimizi də tutsun, desin, bunsuz ola bilməz. Məsələn, mən özəl televiziyaların – ANS-in, SPACE-in, LİDER-in verilişlərinə baxıram, onlardan bir siqnal alıram. Ondan sonra gecə saat 11-12 -də öz işçimi – şöbə müdirini, filanı axtarıram, tapıram. Deyirəm ki, mən televiziyada bunu gördüm. Bu məsələ yoxlanmalıdır. Sən sabah bununla məşğul ol. Yəni bu işi sabaha saxlamıram. Mən gecə televiziyaya baxanda – televiziyaya həmişə baxıram- nə isə görürəmsə, gecə saat 1-də də olsa baş naziri, yaxud bizim şöbə müdirlərini yataqdan qaldırıram, fikrimi onlara çatdırıram. Müxalifət bunları nəzərə alsın».

Prezidentin söz və mətbuat azadlığına xüsusi önəm verməsi və azad mətbuatın inkişafına çalışması onun kütləvi informasiya vasitələri rəhbərləri ilə ötən ilin iyul ayındakı görüşündə bir daha sübuta yetdi. Dövlət başçımızın bu görüşdə azad mətbuata yardımın artırılması, azad mətbuatın inkişafının qarşısında dayanan problemlərin həllinin vacibliyini vurğulaması onun Azərbaycanda söz və mətbuat azadlığının yeganə etibarlı qarantı olduğunu əyani şəkildə göstərir. Prezident Heydər Əliyev, hətta müxalifət mövqeyindən çıxış edən mətbu orqanlara münasibətdə də daim demokratik mövqedən çıxış edərək, görünməmiş bir siyasi dözümlülük və açıqfikirlilik nümunəsi göstərdi. Prezident Heydər Əliyevin kütləvi informasiya vasitələri və jurnalist təşkilatları rəhbərləri ilə 22 iyul 2002-ci il tarixli görüşdə azad mətbuatın inkişafı və ona dövlət qayğısının artırılması ilə bağlı söylədiyi fikirlərin bəzilərini olduğu kimi təqdim etməklə, mülahizələrimizi əsaslandıra bilərik. Dövlət başçımız həmin görüşdə azad mətbuata qayğı və diqqətini bu cümlələrlə ifadə edirdi: «Azadlıq» qəzetinin nəşrini dayanmağa qoymaq olmaz... «Azadlıq» qəzeti o vaxt, sovet dövründə müəyyən qədər Azərbaycanın ümumi əhval-ruhiyyəsini əks etdirən bir qəzet idi. O qəzeti Nəcəf Nəcəfov başlamışdı. Mən Nəcəf Nəcəfovu oradan tanıyırdım. Moskvada mən eşidəndə ki, Nəcəf Nəcəfov, yadıma düşdü ki, burada o, «Molodyoj Azərbaydjana» qəzetində işləmişdir

Mənim fikrim belədir ki, birincisi, müstəqil qəzetləri dəstəkləmək lazımdır. Çünki müstəqil qəzet həm siyasidir, həm də müstəqildir. İkincisi, müxalifət qəzetlərini dəstəkləmək lazımdır. Üçüncüsü də iqtidar qəzetlərini dəstəkləmək lazımdır».

Azərbaycan mətbuatı Heydər Əliyevin Prezidentliyi dövründə hətta Qərbin demokratik təsisatlarını, beynəlxalq qurumları heyrətləndirəcək şəkildə inkişaf edib, öz mövqelərini möhkəmləndirib, doğrudan da «dördüncü hakimiyyət»ə çevrilib. Yeri gəlmişkən, deyək ki, ABŞ-ın Azərbaycandakı səfiri Ross Uilson 2003-cü ilin ilk günlərində ABŞ-da etdiyi çıxışların birində «Azərbaycanda azad mətbuatın inkişafı diqqəti daha çox cəlb edir» deyə bəyan edib. Bu fikir öz əksini ABŞ Dövlət Departamentinin 2002-ci ilin yekunlarına aid hesabatında da tapıb.

İndi Azərbaycanda azad mətbuatın rolu və nüfuzu çox böyük, ictimai-siyasi və sosial-mədəni hadisə və proseslərə təsir imkanları genişdir. Mətbuat həm keyfiyyət, həm də kəmiyyət baxımından inkişaf edərək güclü bir ictimai təsisata çevrilib. Söz və mətbuat azadlığı ölkədə demokratiyanın inkişaf və insan haqlarının qorunma səviyyəsinə mütənasib olaraq ən yüksək həddə təmin olunur. Kütləvi informasiya vasitələrinin fəaliyyətinin bütün sahələrini əhatə edən mükəmməl və universal bir qanunvericilik bazası yaradılıb, onların maddi-texniki bazası və fəaliyyəti üçün dövlət təminatı çox güclüdür. Mətbuat tam sərbəstdir, onun azadlığına Prezident səviyyəsində qarantiya verilib.

«Mən o jurnalistə minnətdar olacağam ki, nöqsanları üzə çıxarsın və biz də işimizdə bundan istifadə edək» deyən Prezident Heydər Əliyev bununla azad mətbuata həmçinin güclü mənəvi dəstək verir, KİV işçilərini mövcud qüsurları daha çevik şəkildə müəyyən etməyə və bu nöqsanların aradan qaldırılması işində fəal şəkildə iştirak etməyə çağırır. Bu isə dövlətin söz və fikir azadlığına, azad mətbuatın roluna verdiyi böyük ictimai dəyər kimi qiymətləndirilməlidir. 1999-cu ilin sonlarında qəbul olunmuş «Kütləvi informasiya vasitələri haqqında» Qanun azad mətbuatla dövlət arasındakı münasibətləri daha demokratik qaydada tənzimləyir, mətbuat azadlığının qorunmasına zəmanət verir. 2001-ci il, yanvarın 25-dən Avropa Şurasının tamhüquqlu üzvü olan Azərbaycanda həm də bu qurum qarşısında götürülmüş öhdəliklərlə əlaqədar olaraq mətbuata özəl münasibət müşahidə edilir. Avropa Şurası ekspertləri Azərbaycanda söz və mətbuat azadlığının qorunması və buna dövlət, Prezident səviyyəsində qarantiya verilməsi hallarını həmişə yüksək dəyərləndirib, Azərbaycanı digər ölkələrə nümunə göstəriblər.

Prezident azad mətbuatı dəstəkləməyin vacib olduğunu təkcə söz müstəvisində ortaya qoymaqla kifayətlənməyibdir. Məhz dövlət başçımızın təşəbbüsü ilə tezliklə əməli addımlar atıldı, kütləvi informasiya vasitələrinə indiyə qədər görünməmiş dərəcədə böyük qayğı göstərilməsinə başlandı. Xatırlatmaq yerinə düşər ki, Prezident Heydər Əliyevin azad mətbuata xüsusi qayğısı onun hakimiyyətə qayıtdığı ilk gündən sezilir. Doğrudur, bu məsələ müxtəlif vaxtlarda müxtəlif səviyyə və formalarda qaldırılıb, mətbuata dövlət qayğısı 1993-cü ildən ötübkeçən illərin hamısında eyni dərəcədə olmayıb. Bunun da obyektiv səbəbləri var.

Prezident Heydər Əliyevin ölkədə söz və mətbuat azadlığının tam bərqərar edilməsi, azad mətbuatın inkişafı, demokratikləşmə prosesinin mətbuat sferasına da siyarət etməsi, mətbuatın qarşısında dayanan əngəllərin birdəfəlik aradan qaldırılması istiqamətində atdığı ən ciddi addımlardan biri sözsüz ki, senzuranın ləğv edilməsi idi. İlk öncə qeyd edək ki, 1993-cü ilə qədər ölkədə hökm sürən anarxiya və qanunsuzluq o zaman yeni-yeni yaranmağa başlayan azad və müstəqil mətbuatın elə beşikdəcə boğulmasını sürətləndirirdi. Ölkədəki hakimiyyətsizlik və başıpozuqluq, habelə Ermənistanın hərbi təcavüzünün cəmiyyətdə doğurduğu ağır sosial-iqtisadi, ictimai-siyasi və mənəvi – psixoloji durum, söz, mətbuat və məlumat azadlığının təmin edilməsinə, sadəcə olaraq, mane olurdu. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Yaqub Məmmədov 1992-ci il, aprelin 16-da ölkədə hərbi senzuranın yaradılması haqqında fərman imzaladı. Bununla da, mətbuat üzərində hələ SSRİ dövründən qalan nəzarət daha da gücləndirilmiş oldu. 1993-cü il, aprelin 15-də o vaxtkı AXC-Müsavat hakimiyyəti dövründə senzuranın tətbiqi miqyası daha da genişləndirildi və bütün informasiya yayımı məkanını əhatə etdi. Bu sənədlər jurnalistlərin sərbəst fəaliyyətini birbaşa məhdudlaşdırır, söz, mətbuat və məlumat azadlığını təmin etmək yolunda hüquqi maneələr yaradırdı.

Vəziyyət yalnız Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın tələbi və o vaxtkı AXC-Müsavat iqtidarının yalvarışları ilə hakimiyyətə qayıtmasından sonra əsaslı şəkildə dəyişdi. İlk öncə dövlətçilik xilas edildi, ölkədə ictimai-siyasi sabitlik və qanunçuluq yaradıldı, həyat normal məcraya salındı, vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün münbit zəmin formalaşdırıldı. İnsan hüquqlarının qorunmağa başlanması ilə bu hüquqların tərkib hissələrindən və əsas ünsürlərindən biri olan söz və mətbuat azadlığı da qorunmağa başlandı. Bu istiqamətdə ən mühüm hadisə 1998-ci ildə baş verdi. Prezident Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində əhəmiyyətli bir addım oldu. Prezident Heydər Əliyevin bu fərmanı ilə Nazirlər Kabineti yanında Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi. 6 avqust 1998-ci il tarixli fərman, həmçinin hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il fərmanı və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncamı qüvvədən saldı. Beləliklə də Azərbaycanda bütün postkommunist məkanında birincilər sırasında olmaqla, senzura tam ləğv edildi.

Prezident Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli fərmanı mətbuatla bağlı daha bir mühüm məsələni həll etdi. Belə ki, bu fərman həm də kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasını, onlara dövlət qayğısının artırılmasını nəzərdə tutan, söz, fikir və məlumat azadlığının qorunmasını, siyasi plüralizm prinsiplərinin dönmədən həyata keçirilməsini təmin edən tədbirlər proqramının layihəsini hazırlamağı Nazirlər Kabinetinə həvalə etmişdi. Bu fərmandan irəli gələn vəzifələrin həyata keçirilməsinə başlanması ilə mətbuat xeyli güzəştlər əldə etdi. Kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə bütün mətbuat və informasiya vasitələri 1998-ci ilin sonundan etibarən əlavə dəyər vergisindən azad olundu. Bu isə bütün MDB məkanında analoqu olmayan bir hadisədir. Xatırladaq ki, yalnız əlavə dəyər vergisi üzrə kütləvi informasiya vasitələrinə verilən illik güzəştin məbləği 7 milyard manat təşkil edir. Milli Məclis tərəfindən qəbul olunmuş yeni Vergi Məcəlləsində kütləvi informasiya vasitələrinin fəaliyyətini stimullaşdır-

maq, onların maddi vəziyyətini yaxşılaşdırmaq və maddi-texniki bazasını möhkəmləndirmək üçün daha əlverişli şərait yaradılmasını nəzərdə tutur.

Bundan əlavə, kütləvi informasiya vasitələrinin təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində daha bir mühüm addım 1999-cu ildə atıldı. Həmin ilin sonlarında Milli Məclis «Kütləvi informasiya vasitələri haqqında» Qanun qəbul etdi. Qanun kütləvi informasiya vasitələri ilə dövlətin qarşılıqlı münasibətlərini beynəlxalq standartlar səviyyəsində müəyyənləşdirir və mətbuat azadlığının təmin edilməsinə daha geniş perspektivlər açır.

Prezident Heydər Əliyevin 2000-ci il martın 6-da imzaladığı sərəncamla «2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması haqqında tədbirlər Proqramı» təsdiq olundu. Proqram kütləvi informasiya vasitələrinin istehsalı və yayımı ilə bağlı problemlərin həlli məqsədilə Əlaqələndirmə Şurasının yaradılmasını, kütləvi informasiya vasitələri subyektləri tərəfindən dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələrinin icarəsini və telefon rabitəsi üzrə müəyyən olunmuş tariflərin minimum məbləğdə ödənilməsini nəzərdə tutur. Milli Məclisin 2001-ci il martın 13-də «Gömrük tarifi haqqında» Qanuna etdiyi dəyişikliyə əsasən kütləvi informasiya vasitələri çap məhsullarının ixracına və idxal edilən xammala görə gömrük rüsumundan azad edildilər.

* * *

Bütövlükdə götürsək, 2001-ci il Azərbaycanda söz və mətbuat azadlığının qorunması və kütləvi informasiya vasitələrinin cəmiyyətdəki mövqeyinin möhkəmlənməsi baxımından dönüş ili də adlandırıla bilər. 2001-ci il yanvarın 25-dən Avropa Şurasının tamhüquqlu üzvü olan Azərbaycan Respublikası bu qurum qarşısında götürdüyü öhdəliklərə əməl edərək, artıq bütün Qərb dünyasında demokratik ölkə kimi tanınır. Prezident Heydər Əliyevin söz və mətbuat azadlığının qorunması, azad mətbuatın inkişafı naminə atdığı addımlarla mötəbər beynəlxalq təşkilatları, o cümlədən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunu, Avropa Şurası Venesiya Komissiyasının, Avropa Şurası Parlament Assambleyasını, ABŞ Milli Demokratiya İnstitutunu, nüfuzlu beynəlxalq media strukturlarını yaxşı mənada təəccübləndirmişdi. Bu qurumlar, eləcə də ABŞ Dövlət Departamenti Azərbaycanda söz və mətbuat azadlığının lazımınca yaxşı təmin edildiyini və etibarlı şəkildə qorunduğunu dəfələrlə rəsmi şəkildə vurğulayıblar. Bu qurumlar Azərbaycanda sözügedən sahədə baş verənləri dəfələrlə təqdir edib, Prezident Heydər Əliyevin bu sahədə həyata keçirdiyi tədbirləri dəstəklədiklərini bildiriblər.

Prezident Heydər Əliyevin azad mətbuata qayğısı özünü dövlət başçımızın 2001-ci ilin iyulunda atdığı daha bir addımla da göstərdi. 2001-ci il iyulun 20-də Milli Mətbuat günü ərəfəsində kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılmasına və Milli Mətbuat, Teleradio və İnternet Şurasının yaradılmasına dair Prezident fərmanı imzalandı. İdarəçilik sisteminin islah olunması məqsədilə elə həmin gün Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi. Bununla da söz və mətbuat azadlığının qorunmasının daha bir mükəmməl və mütərəqqi üsulu işə salınmış oldu.

Prezident Heydər Əliyevin ABŞ-ın ölkəmizdəki səfiri Ross Uilsonla 2001-ci il dekabrın 6-da keçirdiyi görüşdə dilə gətirdiyi «Mən Azərbaycanda söz və mətbuat azadlığının təminatçısıyam və heç kimə imkan verməyərəm ki, bu prinsiplər pozulsun» fikri Azərbaycan rəhbərliyinin söz və mətbuat azadlığına münasibətini daha aydın şəkildə göstərir. ABŞ Dövlət Departamenti Azərbaycan Prezidentinin bu bəyanatından məmnun qaldığını sonralar öz sənədlərində ifadə etmişdi.

2001-ci il dekabrın 18-də Azərbaycan jurnalistlərinin həyatında əlamətdar bir hadisə baş verdi. Prezident Heydər Əliyev həmin gün ölkənin aparıcı kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının rəhbərlərini qəbul edərək, onlarla mətbuatın problemləri barədə geniş fikir mübadiləsi apardı. Kütləvi informasiya vasitələrinin və curnalist təşkilatlarının rəhbərləri Prezidentlə həmin görüşdə mətbuatın problemləri barədə danışdı, dövlətdən və onun başçısından yardım istədilər. Bu məsələlərin siyahısına qəzet kağızı idxalına dövlət rüsumunun ləğvindən tutmuş qəzetlərə dövlət vəsaitindən güzəştli kredit verilməsinə, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin təmin olunmasınadək bir sıra vacib problemlərin həlli daxil idi. Prezident Heydər Əliyev bu görüşdə kütləvi informasiya vasitələrinin qarşılaşdığı daha bir problemi də aradan qaldırmış, yəni qəzetlərin «Azərbaycan» nəşriyyatına olan borclarının ödənilməsi müddətinin 1 illiyə uzadılması, daha dəqiq desək, bu borcların 1 illiyə dondurulması barədə göstəriş vermişdi. Dövlət başçımız media qurumları rəhbərləri ilə bu görüşdə həmçinin, jurnalistlərin peşə fəaliyyətinə görə təqib olunması halları barədə də məlumatlandırılmışdı. Prezident Heydər Əliyev müvafiq dövlət strukturlarına, ilk öncə isə ölkənin hüquq-mühafizə orqanlarına belə hallarla mübarizəni gücləndirməyi ciddi şəkildə tapşırdı və bu məsələni özünün daimi diqqət mərkəzində saxlayacağını bəyan etdi.

Media qurumları rəhbərlərinin Prezident Heydər Əliyevlə 18 dekabr 2001-ci il tarixli görüşü azad mətbuatın tarixinə böyük hadisə kimi düşdü və bu görüşün konkret nəticələri oldu. Belə ki, Prezident Heydər Əliyev bu görüşdən bir neçə gün sonra - 2001-ci il dekabrın 27-də «Kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında» sərəncam imzaladı. Bu sənəd qəzet kağızı idxalına dövlət rüsumunun ləğvi, qəzetlərin iqtisadi müstəqilliyinin artırılması, onlara güzəştli kreditlərin verilməsi, özəl mətbəələrin tikilməsinin stimullaşdırılması, jurnalistlərin peşə fəaliyyətinə görə təqib olunması hallarına son qoyulması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi kimi vacib məsələləri həll etdi.

Prezident Heydər Əliyev 1998-ci il avqustun 6-dan bu günədək sonuncu sərəncam da daxil olmaqla, bilavasitə mətbuatın problemlərinin həlli ilə bağlı 10-dək mühüm sərəncam və fərman imzalayıb. Bu sənədlər mətbuatın fəaliyyət azadlığını təmin edib, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasını əhəmiyyətli dərəcədə möhkəmləndirib, jurnalistlərin peşə fəaliyyəti üçün mak-

simum geniş meydan açıb. 1998-ci il avqustun 6-da Azərbaycanda bütün MDB məkanı ölkələri arasında birincilər sırasında senzura ləğv olunub. Həmin gün «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» fərman imzalayan Prezident Heydər Əliyev mətbuatın həm də maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılacaq addımları müəyyənləşdirmişdi.

Azərbaycan Prezidenti ölkə mətbuatının daha bir problemini həll etdi. Bu problem də kütləvi informasiya vasitələrinin tez-tez məhkəmələrə çəkilməsi ilə bağlıdır. Doğrudur, bu problem əksər hallarda elə mətbuat orqanlarının öz günahı üzündən yaranır. Nəticədə isə məhkəmə salonlarına çəkilən qəzetlər bəzən külli - miqdarda cərimələnir. Aydın məsələdir ki, bu cərimələri ödəmək gücündə olmayan mətbuat orqanları çox çətin duruma düşürlər. Bu problem mətbuatı çoxdan idi narahat edirdi. Amma Prezident Heydər Əliyev daha bir humanist addım ataraq, bu problemi də həll etdi və cərimələnmiş qəzetlərə bir növ mənəvi və maddi amnistiya verdi. Belə ki, dövlət başçımız 2001-ci il dekabrın 29-da çox əhəmiyyətli bir jest etdi. O, məhkəmə çəkişmələrində qəzetləri udmuş şəxslərə tövsiyə etdi ki, onlar qəzetlərə tətbiq olunmuş maliyyə sanksiyalarından imtina etsin, yəni qəzetləri bağışlasınlar. Xatırladaq ki, bu sanksiyaların ümumi məbləği 2 milyard manatdan çox idi. Dövlət başçısının bu tövsiyəsi rəğbət hissi ilə qarşılandı və ona əməl edənlər də tapıldı.

Prezident Heydər Əliyevin bu addımları özünün layiqli qiymətini aldı. Belə ki, Prezident Heydər Əliyev ölkənin aparıcı kütləvi informasiya vasitələri rəhbərləri və jurnalist təşkilatları tərəfindən 2001-ci ilin yekunlarına görə «Jurnalistlərin dostu» elan edildi. Bu mükafatın dövlət başçısına verilməsi müstəqil Azərbaycan Respublikasının tarixində ilk belə hadisə olaraq özünəməxsus presedent yaratdı və gözəl bir ənənənin əsasını qoydu. Prezident Heydər Əliyev bu mükafatı qazanmaqla, əslində söz və mətbuat azadlığının qarantına, azad mətbuatın, açıqfikirliliyin və demokratik təfəkkür tərzinin mücəssəməsinə çevrildi. Dövlət başçımız bu layiqli mükafatı öz gərgin və məqsədyönlü fəaliyyəti ilə qazanmışdı.

Prezident Heydər Əliyev bu adı özünün sonrakı addımları ilə bir daha doğrultdu. Bu addımlardan bir neçəsinə nəzər salaq və mətbuatla bağlı atılan addımların xronikasını izləyək. 2002-ci il martın 4-də ABŞ Dövlət Departamentinin illik hesabatı yayıldı. Hesabatda mülki, siyasi, əmək və digər sahələr üzrə insan hüquqlarının təhlili aparıldı, Dövlət Departamenti Prezident Heydər Əliyevin bu sahədəki, o cümlədən mətbuat azadlığının təmin edilməsi ilə bağlı fəaliyyətini yüksək qiymətləndirdi.

2002-ci il martın 14-də Prezident Heydər Əliyev «Kütləvi informasiya vasitələri haqqında qanuna əlavə və dəyişikliklər haqqında qanun»u imzaladı. Sənədin əhəmiyyəti onun mətbuatı lüzumsuz hüquqi baryerlərdən xilas etmək gücündə olmasıdır. Avropa Şurası ekspertləri bu sənədi «mütərəqqi nümunə» adlandırıb ona yüksək qiymət verdi.

2002-ci il iyulun 20-də Prezident Heydər Əliyev mətbuat işçilərini Milli Mətbuat günü münasibətilə təbrik etdi. Dövlət başçısı bu təbrikdə Azərbaycan mətbuatının demokratiya və aşkarlığın mühüm vasitəsi kimi xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda xidmətlər göstərdiyini vurğuladı.

2002-ci il iyulun 22-də Prezident Heydər Əliyev Milli Mətbuat günü münasibətilə Bakı Mətbuat Klubunun təsisçilərini qəbul etdi. Prezident jurnalistləri maraqlandıran suallara cavab verdi.

2002-ci il sentyabrın 5-də Prezident Heydər Əliyev «Kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında» sərəncam imzaladı. Sərəncam kütləvi informasiya vasitələrinə 3 milyard manat məbləğində güzəştli kredit ayrılmasını nəzərdə tuturdu. Hazırda bu sərəncam icra olunmaqdadır. Bu günədək artıq 5 kütləvi informasiya vasitəsi 1 milyard manat həcmində kredit alıb.

Bütün bunlar «Mən Azərbaycanda söz və mətbuat azadlığının təminatçısıyam və heç kimə imkan verməyəm ki, bu prinsiplər pozulsun» deyə bəyan edən Prezident Heydər Əliyevin söz azadlığına və azad mətbuata verdiyi qiymət və ölkədə fikir və söz azadlığının möhkəmləndirilməsi sahəsindəki xidmətlərinin bir neçə epizodudur. Xatırladaq ki, Azərbaycan Prezidentinin ölkədə azad mətbuata dövlət qayğısının artırılması, söz və mətbuat azadlığının təmin edilməsi sahəsindəki fəaliyyəti beynəlxalq aləmdə dəfələrlə yüksək qiymətləndirilib və təqdir edilib. Avropa Şurası və onun Parlament Assambleyası, Avropa Şurası Venesiya Komissiyası, ATƏT və onun Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, ABŞ Milli Demokratiya İnstitutu və digər beynəlxalq demokratik təsisatlar tərəfindən çox yüksək dəyərləndirilməkdədir. Bu isə ölkə rəhbərliyinin azad sözə və mətbuat azadlığı məsələsinə nümunəvi qaydada münasibət bəslədiyini göstərir.

Nəhayət, 2003-cü il yanvarın 22-də Prezident Heydər Əliyev Milli Teleradio Şurasının 6 üzvünün təyin edilməsi barədə sərəncam imzaladı. Bununla da Milli Teleradio Şurasının 9 üzvünün 6-sı bəlli oldu.

* * *

Bu gün Azərbaycanda 650-yə yaxın kütləvi informasiya vasitəsi- qəzet, jurnal, informasiya agentliyi, teleradio şirkəti tam sərbəst fəaliyyət göstərir. Onlardan 550-yə yaxını Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçib. Burada bir mühüm məqamı da vurğulayaq ki, bu kütləvi informasiya vasitələrinin böyük əksəriyyəti ölkədəki müxtəlif ictimai-siyasi təşkilatlar və siyasi partiyalar, özəl qurumlar və fiziki şəxslər tərəfindən təsis edilib. Bu isə ölkədə mətbuat azadlığının necə yüksək səviyyədə təmin edildiyini əyani şəkildə göstərən faktdır.

Bu gün müstəqil Azərbaycan Respublikasının ən böyük ictimai nailiyyətlərindən biri də ölkədə söz və mətbuat azadlığının tam bərqərar olması, söz azadlığının və insan hüquqlarının qorunmasının ən ali prinsipə çevrilməsidir. Azərbaycan Respublikasının və bu dövlətin 8 milyon vətəndaşının hər birinin bütün digər tarixi-ictimai nailiyyətləri kimi bu uğur da Prezident Heydər Əliyevin adı ilə bağlıdır.